http://www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 - cü ildən çıxır. №15 (1547) 15 sentyabr 2012 - ci il Qiymәti 20 qәpik

## Prezident İlham Əliyev XIV London Paralimpiya Oyunlarında ölkəmizi təmsil etmiş idmançıları və onların məşqçilərini qəbul etmişdir

Sentyabrın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev XIV London Paralimpiya Oyunlarında ölkəmizi təmsil etmiş idmançıları və onların məşqçilərini qəbul etmişdir. Prezident İlham Əliyev idmançıları salamlayaraq geniş nitq söyləmişdir.

Sonra London Paralimpiya Oyunlarında uğur qazanmış idmançıların və onların məşqçilərinin mükafatlandırılması mərasimi olmuşdur.

Mükafatlandırılan idmançılar və onların məşqçiləri ölkə başçısı ilə xatirə şəkli çəkdirmişlər.



# Səhiyyə naziri ATU-da aparılmış bir sıra əsaslı təmir və yenidənqurma işləri ilə tanış olmuşdur

**Respublikamızda baş verən yüksək iqdisadi inkişaf cəmiyyətimizin mədəni-sosial həyatında o cümlədən təhsil sistemində də böyük dönüşə səbəb olmuşdur.**







Yüksək ixtisaslı kadrlar hazırlamaq üçün dünya standartlarına cavab verən tədris korpuslarının inşa olunması və yenidən qurulması ölkəmizdə həyata keçirilən sosialyönlü siyasətin tərkib hissəsidir. Bu istiqamətdə ardlıcıl və sistemli şəkildə aparılan islahatların nəticəsi kimi son illərdə tibb təhsilinin maddi-texniki bazası və infrastrukturu yeniləşir, bir sıra universitet klinikalarının yaradılması, tədris zamanı ən müasir texnologiyaların tətbiqi tədrisin keyfiyyətinin əhəmiyyətli dərəcədə yüksəlməsinə şərait yaradır.

Bu baxımdan Azərbaycan Tibb Universitetində təhsilin yüksək səviyyədə tədrisi ilə bərabər ardıcıl olaraq tədris korpuslarında əsaslı təmir-tikinti işləri aparılır.

Hər il olduğu kimi bu il də ATU-da yeni tədris ilinə hazırlıq işləri həyata keçirilir.

Sentyabrın 5-də Səhiyyə naziri, professor Oqtay Şirəliyev və ATU-nun rektoru, millət vəkili, akademik Əhliman Əmiraslanov bu il yay tətili mövsümündə universitetin 3 saylı və 4 saylı tədris korpuslarında yerləşən kafedraların dəhlizlərində, auditoriyalarında və dərs otaqlarında aparılan əsaslı yenidənqurma işlərinə nəzər yetirdilər, buradakı yeniliklərlə maraqlandılar. İnsan anatomiyası, farmakologiya və pataloji fiziologiya kafedralarını gəzən nazir və rektor burada çalışan əməkdaşlarla xatirə şəkili çəkdirdilər.

Bundan başqa universitetin akademik Həsən Əliyev küçəsində yerləşən 6 saylı tələbə yataqxanasında aparılmış köklü təmir-bərpa işləri ilə də yaxından tanış oldular.

Əvvəlki görkəmindən əsər-əlamət qalmayan, ətrafa xüsusi gözəllik verən binanın fasadı yeni alkopan üzlüklərlə örtülmüş, ərazisi abadlaş-dırılmışdır.

Nazirə məlumat verildi ki, yataqxananın bütün köhnə sistemi başdan-başa yeniləşmiş kommunikasiya xətləri, sanitariya qovşağı, lift, qapı-pəncərələr tamamilə dəyişdirilmiş, müasir texnologiya ilə əvəzlənmişdir. 121 otaqdan ibarət olan yataqxanada 370 tələbənin rahat yaşaması üçün hər cür şərait yaradılmışdır. Burada tələbələrin asudə vaxtlarını mənalı keçirmək üçün istirahət otağı, ayrıca oxu zalı, ümumi yeməkxana da onların istifadəsinə verilmişdir. Bundan başqa bütün yaşayış otaqlarının hər birində tualet-hamam, o cümlədən hər mərtəbənin özünə məxsus mətbəxi vardır. Yeni üslubda təmir olunan yataqxana müasir dəbli mebel və avadanlıqla təchiz edilmişdir.

Binaya baxış keçirən nazir O.Şirəliyev burada görülən işlərdən məmnun qaldığını bildirdi, universitetin rəhbərliyinə, akademik Əhliman Əmiraslanova və tikinti işlərinə rəhbərlik edən Əvəz Şükürova dərin təşəkkürünü çatdırdı. Universitet kollektivinə qarşıdan gələn yeni dərs ilində uğurlar dilədi.

Bəli, yeni dərs ilinin başlanmasına çox az vaxt qalıb. Universitetimizin maddi-texniki bazası ildən-ilə möhkəmləndikcə müasir tipli tədris korpuslarının tikilməsi və yenidən qurulması da təbii haldır. Bir sözlə, ATU öz geniş elmi potensial imkanlarını artırmaqla gələcəyin həkimlərini hazırlamaq üçün günü-gündən inkişaf etməkdədir.

**MƏNSUR**

# Azərbaycan Tibb Universitetində rezidenturaya qəbul imtahanları nəticəsində ixtisas seçiminə buraxılmış namizədlərlə görüş keçirilmişdir

**◆ Sentyabrın 11-də Azərbaycan Tibb Universitetində (ATU) rezidenturaya qəbul imtahanları nəticəsində ixtisas seçiminə buraxılmış namizədlərlə görüş keçirilmişdir.**

Görüşdə Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının (TQDK) rəhbərliyi və Səhiyyə Nazirliyinin müvafiq müəssisələrinin nümayəndələri iştirak etmişlər.



Tədbirdə ATU-nun rektoru, Milli Məclisin deputatı, akademik Əhliman Əmiraslanov Azərbaycanda rezidenturaya artıq ikinci dəfə qəbul aparıldığını bildirmişdir. Bu il Səhiyyə Nazirliyi rezidentura üçün 533 yer ayırmışdır ki, bu da ötən ildəkindən xeyli çoxdur. Keçən il rezidentura hazırlığı aparan müəssisələrin sayı təxminən 13 idisə, bu il Azərbaycanın, o cümlədən Naxçıvanın 27 klinikasında rezidentlər hazırlanacaqdır. ATU-nun stomatoloji, onkoloji və terapevtik klinikalarına rezidentura qəbulu aparılacaq və təxminən 140 nəfər qəbul olunacaqdır. Rezidenturaya sənəd verənlərin əksəriyyəti ATU-nun məzunlarıdır. Keçən illə müqayisədə bu il imtahanlarda daha yüksək nəticələr əldə olunmuşdur. Rektor imtahanları müvəffəqiyyətlə vermiş namizədləri təbrik etmiş, onlara uğurlar arzulamışdır.

TQDK-nın sədri Məleykə Abbaszadə ölkəmizdə səhiyyə sahəsində tədrisin keyfiyyətinin yüksəldilməsi məqsədi ilə keçirilən çətin imtahanlarda uğur qazanmış namizədləri təbrik etmişdir.

Bildirmişdir ki, hər il ali təhsil müəssisələrinə qəbul imtahanlarında ən yüksək nəticə göstərən abituriyentlər ATU-nu seçirlər. Bu il dördüncü qrupda 600 baldan yuxarı nəticə göstərmiş 362 nəfərdən 358-i məhz ATU-nu seçmişdir.

TQDK-nın sədri bildirmişdir ki, rezidenturaya imtahan verənlər arasında 100 baldan yuxarı nəticə göstərənlər əsasən Tibb Universitetinin məzunlarıdır. Onlardan 10 nəfəri Naxçıvan Dövlət Universitetinin, ikisi Odlar Yurdu Universitetinin, üç nəfəri isə Xəzər Universitetinin məzunlarıdır. Bu il müsabiqəyə buraxılmaq üçün minimum bal 90 idi. Gələn il bu göstərici 100 baldan yuxarı olacaqdır.

İxtisas seçiminə məsuliyyətlə yanaşmağı, düzgün seçim aparmağı tövsiyə edən M.Abbaszadə ilkin yerləşdirmədən sonra boş qalan yerlərə yenidən qəbul elan olunacağını diqqətə çatdırmışdır. Müsabiqəyə buraxılan, lakin qəbul olunmayanlar bu mərhələdə iştirak edə biləcəklər.


Fotolar Cənnətalı Çingizindir

Dörd istiqamət üzrə rezidenturaya imtahan keçirildiyini qeyd edən TQDK sədri onların hər birinin nəticələri haqqında məlumat vermişdir.

Səhiyyə Nazirliyi Aparatının rəhbəri Zəkiyyə Mustafayeva demişdir ki, 2011-ci ildən başlayaraq ölkəmizdə həkimlərin diplomdan sonrakı hazırlığı rezidentura vasitəsilə həyata keçirilir.

Son beş ildə Prezident İlham Əliyevin sosial yönümlü siyasəti və təşəbbüsü ilə nazirlik tərəfindən 400-dən çox tibb müəssisəsi təmir edilmiş və müasir avadanlıqla təchiz olunmuşdur. Hazırda həmin müəssisələrin yüksəkixtisaslı kadrlarla təmin olunması vacib məsələlərdəndir. ATU-nun əməkdaşları ilə birgə Səhiyyə Nazirliyi tərəfindən bu il 40 ixtisas üzrə rezidentura proqramları hazırlanmış və rəy verilməsi üçün beynəlxalq ekspertlərə təqdim edilmişdir.

Rezidentlər hazırlayacaq tibb müəssisələrinin rəhbərləri tədbirdə çıxış edərək təmsil etdikləri qurumlar və burada rezidentlər üçün hərtərəfli şəraitin yaradılmasından danışmışlar.

Namizədlərə ixtisas seçimi ilə bağlı məsləhət və tövsiyələr verilmiş, onları maraqlandıran suallar cavablandırılmışdır.

**Arif MƏMMƏDLİ**

# REKTOR İRAQIN ÖLKƏMİZDƏKİ SƏFİRİNİ QƏBUL ETMİŞDİR

**◆ Sentyabrın 4-də ATU-nun rektoru, millət vəkili, akademik Əhliman Əmiraslanov İraqın ölkəmizdəki səfiri Heydər Əlbarakı qəbul etmişdir. Qarşılıqlı anlaşma şəraitində keçən görüşdə Ə.Əmiraslanov Azərbaycan Tibb Universitetinin beynəlxalq əlaqələrinin artan nüfuzundan, bir sıra ölkələrin ali məktəbləri və tibb müəssisələri ilə genişlənən əməkdaşlığından söhbət açmış, rəhbərlik etdiyi universitetin maddi-texniki bazası, kadr potensialı, təlim-tərbiyə prosesi barədə cənab səfiri məlumatlandırmış və son dövrlərdə universitet klinikalarının yaradılması istiqamətində görülən işlərdən danışmışdır.**



Səmimi qəbula görə ATU-nun rəhbərinə minntədarlıq edən səfir H.Əlbarak bildirmişdir ki, İraqda artıq sabitlik günü-gündən vüsət alır, insanlar normal həyata qayıdır. Bu baxımdan da ölkədə təhsil, mədəniyyət, səhiyyə sahəsində inkişaf vardır. İndi artıq insanların maddi durumu imkan verir ki, onlar öz övladlarının daha yaxşı təhsil alması üçün dünyanın tanınmış universitetlərində oxutdursunlar. Bunun üçün də iraqlı gənclərin üz tutduqları ölkələrdən biri də məhz Azərbaycandır.

Hal-hazırda Azərbaycan Tibb Universitetində 80-ə yaxın iraqlı tələbənin təhsil aldığını vurğulayan səfir yeni tədris ilində daha 50 tələbənin də burada oxumaq arzusunda olduğunu diqqətə çatdırdı.

Aparılan qarşılıqlı söhbət əsasında rektor Ə. Əmiraslanov bildirdi ki, əlbəttə, hər bir universitetin öz təhsil proqramı vardır ki, tədris qaydaları bunun əsasında həyata keçirilir. Əgər gələcəkdə səfirliklə universitetimiz arasında belə bir razılaşma olarsa, tələbələr ilk öncə hazırlığa qəbul olunar, tibbi ədəbiyyatı mənimsədikdən sonra onların arasında seçim aparılaraq Azərbaycan və ingilis bölmələrinə daxil edilə bilərlər.

Səmimi keçən görüşdə təhsillə bağlı onları düşündürən bir sıra vacib məsələlər ətrafında da fikir mübadiləsi aparılmışdır. Sonda akademik Əhliman Əmiraslanov universitetin xatirə medalını və xüsusi hədiyyəni səfir Heydər Əlbaraka təqdim etmişdir.

**Qəmər ƏLİQIZI**

# İnönü Universitetinin rektoru ATU-da

**Sentyabrın 14-də ATU-nun rektoru, Milli Məclisin deputatı, akademik Əhliman Əmiraslanov ölkəmizdə səfərdə olan Malatyanın İnönü Universitetinin rektoru, professor Cəmil Çeliki və həmin universitetin Qaraciyər Köçürülməsi İnstitutunun direktoru, professor Serayi Yılmazı qəbul etmişdir.**



Beynəlxalq əlaqələri ildən-ilə genişlənən Azərbaycan Tibb Universitetində qardaş Türkiyə Cümhuriyyətinin bir sıra ali məktəbləri və tibb müəssisələri ilə əməkdaşlığa xüsusi önəm verildiyini vurğulayan rektor rəhbərlik etdiyi universitetin maddi-texniki bazası, kadr potensialı, təlim və tədris prosesi haqqında ətraflı məlumat vermiş, son dövrlərdə universitet klinikalarının yaradılması istiqamətində görülən işlərdən danışmışdır.

Səmimi qəbula görə ATU-nun rektoruna təşəkkürlərini çatdıran professor Cəmil Çelik rəhbərlik etdiyi universitet haqqında akademik Ə.Əmiraslanovu bilgiləndirdi. O, dedi ki, İnönü Universiteti 38 ildir ki, fəaliyyət göstərir, dünyanın sayılıb-seçilən universitetləri ilə rəqabət aparır. Burada 30 fakültədə 30 min tələbə təhsil alır. Universitetin özünün 18 institutu vardırdır ki, bunlardan biri də Turqut Özalın vaxtı ilə təməlini qoyduğu Qaraciyər Köçürmə İnstitutudur ki, burada ildə 220 qaraciyər köçürmə əməliyyatı aparılır.

Qarşılıqlı səmimiyyət şəraitində şəraitində keçən görüşdə gələcəkdə ikitərəfli əlaqələrin yaradılmasına dair ilkin razılaşma əldə olunmuş, müvafiq müqavilələrin imzalanması qərara alınmışdır.

Qəbulda ATU-nun xarici əlaqələr üzrə prorektoru, professor Məmməd Nəsirov, I cərrahi xəstəliklər kafedrasının müdiri, professor Nuru Bayramov və xarici əlaqələr şöbəsinin müdiri, dosent Rəhimə Qabulova iştirak etmişlər.

**M.CAVADOV**

Azərbaycan Tibb Universitetinin rektorluğu, Həmkarlar İttifaqı Komitəsi universitetin professor-müəllim heyətini, bütün əməkdaşlarını və tələbələrini **“Bilik günü”** münasibətilə səmimi qəlbdən təbrik edir, onların hər birinə möhkəm cansağlığı, firavan həyat, bol-bol sevinc arzulayırlar!

# Tədris-Terapevtik Klinikanın bir illik fəaliyyətinə həsr olunmuş toplantı keçirilmişdir

**Sentyabrın 13-də ATU-nun Tədris-Terapevtik Klinikanın bir illik fəaliyyətinə həsr olunmuş hesabat xarakterli toplantı keçirildi.**



Tibbi personalın iştirak etdiyi toplantını klinikanın direktoru, professor Surxay Musayev açaraq burada dünya standartlarına uyğun maddi-texniki bazanın yaradıldığını vurğuladı. Qısa müddətdə görülən işləri, qazanılan uğurları, eləcə də həllini gözləyən problemləri diqqətə çatdıraraq qeyd etdi ki, klinikada əsaslı təmirə ehtiyac olmasa da, bəzi uyğunsuzluqlar aradan qaldırılmış, ümumi sahəsi 600 kv.m. olan balkonlar şüşələnərək gözlənilən təhlükənin qarşısı alınmışdır. Bundan əlavə binanın dam örtüyündə, ayrı-ayrı palatalarda və pilləkən qəfəslərində kiçik təmir-bərpa işlərinin aparıldığını söyləyən S.Musayev klinikanın qış mövsümünə tam hazır olduğunu bildirdi.



Klinikanın baş həkimi Cəfər Əhmədov bir il ərzində xəstələrin qəbulu, müayinə və müalicəsi ilə bağlı statistik məlumatları diqqətə çatdırdı. Polikliniki qəbuldan 35 mindən artıq xəstənin keçməsinə baxmayaraq, yalnız 4 minə yaxın xəstənin stasionar müalicəyə cəlb edilməsini təəssüf doğuran fakt kimi qiymətləndirdi.

Universitetin tədris işləri üzrə prorektoru, professor Sabir Əliyev 16 klinik kafedranın yerləşdiyi klinikada xəstələrin azlığına haqq qazandırmağın mümkünsüzlüyünü dedi. Bu gün xəstələrin İrana, Türkiyəyə və Avropa ölkələrinə üz tutmasından təəssüfləndiyini dilə gətirən prorektor belə halları həkimlərimizin özlərinə inam yarada bilməməsi, təbliğatın düzgün qurulmaması ilə əlaqələndirdi. Dəyişən dünyada təhsilin məzmununun yeniləşdiyini, Baloniya prosesinə qoşulduğumuzu xatırladaraq bu sahədə dönüş yaratmağın vacibliyini önə çəkdi. Tələbələrin xəstələrlə təmasının qənaətbəxş olmadığına da toxunan S.Əliyev sadalanan nöqsanlara tezliklə son qoyulacağına inandığını söylədi.

S.Musayev elmi-tədqiqat, müalicə və diaqnostika işlərini özündə birləşdirən universitet klinikasında tərəqqinin göz qabağında olduğunu vurğulamaqla bərabər, iradlarını da toplantı iştirakçılarının diqqətinə çatdırdı. Bəzi müəllimlərin məsuliyyətsizliyini, köhnə metodlarla, saralmış kağızlarla işlədiklərini pisləyərək onların sosial şəbəkələrdə gülüş obyektinə çevrilmələrindən narahatlığını da gizlətmədi. Sonda klinika rəhbərliyi ilə işçilər arasında bağlanan müqavilənin zəruri müddəalarına aydınlıq gətirdi.

**A.KAMRANOĞLU**

# ATU-da TƏLİM KURSLARI

**◆ Azərbaycan Tibb Universitetində mütəmadi olaraq beynəlxalq səviyyəli tədbirlərin keçirilməsi artıq ənənəyə çevrilib. Təhsilə, tibbin ayrı-ayrı sahələrinə aid seminarların, konfrans və konqreslərin aparılması yeni dərs ilinin başlanması ərəfəsində daha da intensivləşib.**



Belə tədbirlərin davamı olaraq sentyabrın 13-də Tədris Terapevtik Klinikada "Bacarıqların təlimi və qiymətləndirilməsi" mövzusunda 13 sessiya ilə həyata keçiriləcək kursun açılışı oldu. ATU-nun tədris şöbəsinin (müdir dosent Nəsimi Qasımov) və tədris-metodik innovasiyalar şöbəsinin (müdir professor Akif Qurbanov) təşəbbüsü ilə aparılan təlim kursunun ilk günü könüllü əməkdaşların qatıldığı geniş qrup konfransı keçirildi. ATU-nun tədris işləri üzrə prorektoru, professor Sabir Əliyev konfransda çıxış edərək təlimə verilən müasir tələblərin əhəmiyyətindən danışdı. O, təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində atılan hər addımın xüsusi önəm daçıdığını vurğulayaraq təlim kursunun işinə uğurlar arzuladı.

Bundan sonra konfransa dəvət alan Ege Universitetinin (Türkiyə, İzmir) Tibb fakültəsinin Tibb təhsili kafedrasının dosenti Halil İbrahim "Tibb təhsilində müasir tendensiyalar", "Tibb təhsili və Boloniya prosesi", "Təhsil nəzəriyyələri və onların tibb təhsilində istifadəsi" məsələləri barədə fikirlərini tədbir iştirakçıları ilə bölüşdü. Hər bir mövzu ətrafında ətraflı müzakirələr aparıldı.

Sonrakı günlərdə "Kiçik qruplarda tədris", "Təlimi əsaslandıran səlahiyyətlər", "Bilik və bacarıqların tədrisi, qiymətləndirilməsi" və digər məsələlərin müzakirəsi nəzərdə tutulub.

Təlim kursları sentyabrın 18-dək davam edəcəkdir.

**Afət İSMAYILOVA**

Rəhimə

# "Pediatriyada Təxirəsalınmaz Vəziyyətlər" üzrə təlimlər

**Sentyabrın 3-də Azərbaycan Tibb Universitetinin Tədris-Terapevtik Klinikasında "Pediatriyada Təxirəsalınmaz Vəziyyətlər" üzrə təlimə start verilmişdir.**



Təlimin kursu Vilnüs Universitetinin tibb fakültəsinin dosenti Virciniya Zilinskaite, Vilnus Universitetinin Pediatrik Klinikasının intensiv terapiya şöbəsinin baş həkimi Vitautas Zubka və Vilnus Uşaq Xəstəlikləri Klinikasının intensiv terapiya şöbəsinin aparıcı mütəxəssisi Goda Viktorija Sibulskiene tərəfindən aparılır. Təlim kursu Tibb Universitetinin uşaq xəstəlikləri kafedralarının müəllim heyəti üçün tərtib edilmişdir. Təlim ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi (USAİD) tərəfindən maliyyələşən "Azərbaycanda Səhiyyənin Gücləndirilməsi" layihəsi çərçivəsində təşkil olunmuşdur. Kursun əsas məqsədi iştirakçıları uşaqların reanimasiyası üzrə beynəlxalq tövsiyələrlə yaxından tanış etməkdir. Təlim kursuna aşağıdakı mövzular daxil edilmişdir: "Yuxarı və aşağı tənəffüs yollarının obstruksiyası"," Hemodinamik pozğunluqların qiymətləndirilməsi və şok vəziyyəti", "Kəskin hipovolemiya və hipovolemik şok", "Mərkəzi sinir sisteminin fəaliyyətinin kəskin pozuntuları", "Anafilaksiya", "Uşaqlarda kəskin zəhərlənmələr", "Kəskin bağırsaq disfunksiyası", "Turşu-qələvi müvazinəti və ketoasidoz" və s. Hər sessiyanın sonunda kliniki hallar araşdırılırdı. Bundan əlavə, təlim zamanı əldə olunan biliklər praktiki məşğələlər zamanı manekenlər üzərində təkminləşdirilirdi. Təlimin sonunda bu manekenlərin təlim prosesində tələbələr tərəfindən istifadəsi üçün Tibb Universitetinə töhfə edilməsi planlaşdırılır.



Təlimin açılışında çıxış edən klinikanın direktoru , professor Surxay Musayev tədris ilinin ilk günlərində aparılan bu təlimin əhəmiyyətini xüsusi vurğulayaraq "Azərbaycanda səhiyyənin gücləndirilməsi" layihəsi çərçivəsində Azərbaycan Tibb Universiteti ilə əməkdaşlığın hazırkı durumu barədə dinləyiciləri tanış etmiş, bu kimi tədbirlərin tibbi təhsilin keyfiyyətinə müsbət təsir göstərəcəyinə ümid bəslədiyini söyləmişdir.

Təlim sentyabr ayının 7-dək davam etmişdir.

**Rəhimə Qabulova,**
*ATU-nun xarici əlaqələr şöbəsinin müdiri, dosent*

# Rezidenturaya qəbul imtahanının nəticələri elan olunmuşdur

**◆ Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) 2012/2013-cü tədris ili üçün rezidenturaya sentyabrın 8-i və 9-da keçirilmiş qəbul imtahanlarının nəticələrini elan etmişdir.**

Tələbə Qəbulu üzrə Dövlət Komissiyasından AzərTAc-a bildirmişlər ki, qaydalara əsasən, namizədlərin birinci mərhələdə baza fənləri üzrə, ikinci mərhələdə isə ixtisas fənləri üzrə bilikləri yoxlanmışdır.

İstiqamətlər üzrə ixtisasların seçimində iştirak etmək üçün qoyulan minimal tələblər (müsabiqə şərtləri) aşağıdakı kimidir:

Müalicə işi, pediatriya istiqamətinə aid olan ixtisaslar üçün - baza fənləri üzrə 40 bal, ixtisas fənləri üzrə 50 bal;

Stomatologiya istiqamətinə aid olan ixtisaslar üçün - baza fənləri üzrə 40 bal, ixtisas fənləri üzrə 50 bal;

Tibbi biologiya istiqamətinə aid olan ixtisaslar üçün - baza fənləri üzrə 30 bal, ixtisas fənləri üzrə 40 bal;

Tibbi profilaktika istiqamətinə aid olan ixtisaslar üçün - baza fənləri üzrə 30 bal, ixtisas fənləri üzrə 40 bal.

Namizədlərdən ümumilikdə 835 nəfəri ixtisas seçimində iştirak etmək hüququ qazanmışdır.

# Azərbaycan Tibb Universitetinin məzunlarından 200-ü xarici ölkələrdə rezidenturalara qəbul olunmuşdur

**◆ Azərbaycan Tibb Universitetini bu il və keçən il bitirmiş məzunlardan 200-ü xarici ölkələrdə rezidenturalara qəbul olunmuşdur.**

Bu sözləri ATU-nun rektoru, Milli Məclisin deputatı, akademik Əhliman Əmiraslanov sentyabrın 11-də ölkəmizdə rezidenturaya qəbul imtahanları nəticəsində ixtisas seçiminə buraxılmış namizədlərlə görüşdə bildirmişdir.

Rektor demişdir ki, universitetin məzunları bu il Türkiyə, Almaniya, ABŞ və digər ölkələrdə rezidenturaya sənəd vermişlər. Almaniyada keçirilən imtahanlarda iştirak etmiş azərbaycanlı gənclərdən 40-ı həmin ölkədə rezidenturaya qəbul olunmuşdur. Altmış beş nəfərin isə sənədlərinə baxılır.

Ə.Əmiraslanov vurğulamışdır ki, hər il ATU-nun məzunlarından 100-120 nəfəri müxtəlif ölkələrdə çətin imtahanlardan keçərək diplomlarını təsdiq edirlər.

# 2012/2013-cü tədris ili üçün rezidenturaya keçirilmiş müsabiqənin nəticələri açıqlanmışdır

2012/2013-cü tədris ili üçün baza ali tibb təhsili əsasında rezidenturaya keçirilmiş müsabiqənin nəticələri açıqlanmışdır.

Tələbə Qəbulu üzrə Dövlət Komissiyasından bildirmişlər ki, müalicə işi, pediatriya istiqaməti üzrə rezidenturaya 442 nəfər, stomatologiya istiqaməti üzrə 23 nəfər, tibbi-biologiya istiqaməti üzrə 11 nəfər və tibbi-profilaktika istiqaməti üzrə 16 nəfər qəbul olunmuşdur.

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

## 2012- Cİ TƏDRİS İLİ ÜÇÜN İSTEHSALATDAN AYRILMAQLA FƏLSƏFƏ DOKTORU, ELMLƏR DOKTORU HAZIRLIĞI ÜZRƏ DOKTORANTURAYA VƏ DİSSERTANTURA YOLU İLƏ ELMİ KADRLARIN HAZIRLANMASI ÜZRƏ

# QƏBUL ELAN EDİR:

### I. Fəlsəfə doktoru hazırlığı üzrə doktorantura

Fəlsəfə doktoru hazırlığı üzrə doktoranturaya istehsalatdan ayrılmaqla elmi tədqiqat işlərinə marağı olan tam ali təhsilli Azərbaycan Respublikası vətəndaşları qəbul edilirlər.

Fəlsəfə doktoru hazırlığı üzrə doktoranturaya ali təhsili olan, ali təhsil pilləsinin magistratura və ya rezidentura səviyyəsini, yaxud tibbi təhsildə həkim və həkim mütəxəssis səviyyəsini bitirən, seçdikləri ixtisasın profili üzrə internaturasız azı 2 il iş stajı olan Azərbaycan Respublikası vətəndaşları müsabiqə yolu ilə qəbul olunurlar.

Fəlsəfə doktoru hazırlığı üzrə doktoranturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilməlidir:

- rektorun adına ərizə
- kadrların şəxsi qeydiyyat vərəqəsi
- tərcümeyi-hal
- 2 ədəd fotoşəkil
- İş yerindən xasiyyətnamə
- İş stajı olanlar üçün əmək kitabçasından çıxarış
- çap olunmuş elmi işlərin siyahısı, onların surəti və ya seçilmiş ixtisas üzrə referat
- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə)
- şəxsiyyəti təsdiq edən sənədin surəti
- internaturanı qurtarmaq haqqında şəhadətnamənin surəti (təsdiq olunmuş)
- ordinaturanı qurtarmaq haqqında vəsiqənin surəti (təsdiq olunmuş)
- imtahan məqbul kitabçasından çıxarış
- tibbi arayış (286 nömrəli forma)

Fəlsəfə doktoru hazırlığı üzrə doktoranturaya daxil olmaq istəyənlər ixtisas fənnindən, xarici dildən (rus dili istisna olmaqla) və fəlsəfədən ali təhsil pilləsi üçün qüvvədə olan tədris proqramları həcmində qəbul imtahanı verirlər.

Qəbul imtahanlarına buraxılanlara imtahana hazırlaşmaq və imtahan vermək üçün iş yerində əmək haqqı saxlanılmaqla 30 gün əlavə məzuniyyət verilir.

### II. Elmlər doktoru hazırlığı üzrə doktorantura

Elmlər doktoru hazırlığı üzrə doktoranturaya fəlsəfə doktoru (elmlər namizədi) elmi (alimlik) dərəcəsi olan Azərbaycan Respublikasının vətəndaşları qəbul edilirlər.

Elmlər doktoru hazırlığı üzrə doktoranturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilməlidir:

- rektorun adına ərizə
- kadrların şəxsi qeydiyyat vərəqəsi
- tərcümeyi-hal
- 2 ədəd fotoşəkil
- İş yerindən xasiyyətnamə
- əmək kitabçasından çıxarış
- çap olunmuş elmi işlərin siyahısı
- «Fəlsəfə doktoru» və ya «Elmlər namizədi» elmi (alimlik) dərəcəsi diplomunun təsdiq edilmiş surəti
- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə)
- şəxsiyyəti təsdiq edən sənədin surəti

| № | İXTİSASLAR | İxtisas kodu | Fəlsəfə doktoru hazırlığı üzrə | Elmlər doktoru hazırlığı üzrə |
|---|---|---|---|---|
| 1 | Mamalıq-ginekologiya | 3215.01 | 2 | - |
| 2 | Daxili xəstəliklər | 3205.01 | 2 | - |
| 3 | Farmakologiya, klinik farmakologiya | 3209.01 | 1 | - |
| 4 | Psixiatriya | 3211.01 | - | 1 |
| 5 | Cərrahlıq | 3213.01 | 2 | - |
| 6 | Pediatriya | 3220.01 | 2 | - |
| 7 | Stomatologiya | 3226.01 | 2 | - |
| 8 | Anesteziologiya və reanimatol | 3231.01 | 1 | - |
| 9 | Allerqologiya və immunologiya | 3244.01 | 1 | - |
| 10 | Bərpa təbabəti, idman təbabəti | 3245.01 | 1 | - |
| 11 | Əczaçılıq kimyası, farmakoqnoziya | 3400.02 | 1 | - |

### III. Dissertantura yolu ilə elmi kadrların hazırlanması

Dissertant kimi təhkim olunmaq istəyən şəxslər elmi və elmi pedaqoji iş stajına malik olmalıdırlar.

| № | İXTİSASLAR | İxtisas kodu | Fəlsəfə doktoru hazırlığı üzrə | Elmlər doktoru hazırlığı üzrə |
|---|---|---|---|---|
| 1 | Biokimya | 2406.02 | 1 | - |
| 2 | Daxili xəstəliklər | 3205.01 | 1 | - |
| 3 | Farmokologiya, klinik farmakologiya | 3209.01 | 1 | - |
| 4 | Psixiatriya | 3211.01 | 2 | - |
| 5 | Cərrahlıq | 3213.01 | 2 | - |
| 6 | Göz xəstəlikləri | 3219.01 | 1 | - |
| 7 | Pediatriya | 3220.01 | 2 | - |
| 8 | Stomatologiya | 3226.01 | 1 | - |
| 9 | Anesteziologiya və reanimatologiya | 3231.01 | 1 | - |
| 10 | Patoloji fiziologiya | 3243.01 | 1 | - |
| 11 | Allerqologiya və immunologiya | 3244.01 | 1 | - |
| 12 | Dərmanların alınma texnologiyası əczaçılıq işinin təşkili | 3400.01 | 1 | - |
| 13 | Əczaçılıq kimyası, farmakoqnoziya | 3400.02 | 1 | - |

Dissertantura yolu ilə təhsil almaq üçün aşağıdakı sənədlər təqdim edilməlidir

- rektorun adına ərizə
- kadrların şəxsi qeydiyyat vərəqəsi
- tərcümeyi-hal
- 2 ədəd fotoşəkil
- İş yerindən xasiyyətnamə
- əmək kitabçasından çıxarış
- çap olunmuş elmi işlərin siyahısı, onların surəti və ya seçilmiş ixtisas üzrə referat
- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə)
- şəxsiyyəti təsdiq edən sənədin surəti

**Müsabiqədə iştirak etmək istəyənlər mövcud əsasnamə üzrə sənədləri 15.09.2012-ci il tarixindən 15.10.2012-ci ilə qədər aşağıdakı ünvana göndərə bilərlər:**

**Bakı şəhəri- Az 1007, Bakıxanov küçəsi 23**

*R E K T O R L U Q*

---

## Etibarsız sayılır

II müalicə-profilaktika fakültəsinin II kurs, 335[b] qrup tələbəsi Allahverdiyeva Lalə Nəsib qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin II kurs, 143[a] qrup tələbəsi İsmayılov Anar Lətif oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Muradov İbrahim Hüseynbala oğluna məxsus (1996-cı ildə alınmış) Sabunçu rayonunun Ləhiş bağ massivi ərazisində yerləşən 12 sot (5623 saylı) bağ sahəsinin sənədi itdiyi üçün etibarsız sayılır.

2009-cu ildə Nəsimi RPİ tərəfindən Hicranlı Rövşən Sərdar oğluna verilmiş şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

## Allah rəhmət eləsin!

"Təbib" qəzetinin redaksiyası, əczaçılıq fakültəsinin dekanlığı, ictimai sağlamlıq və səhiyyənin təşkili, farmakologiya, fəlsəfə, tibbi fizika və informatika, ümumi gigiyena və ekologiya, rus dili, iqtisadiyyat və hüququn əsasları, Azərbaycan tarixi, əczaçılığın texnologiyası, iqtisadiyyatı və təşkili, biofiziki və bioüzvi kimya, ümumi və toksikoloji kimya, Azərbaycan dili, operativ cərrahlıq və topoqrafik anatomiya, xarici dillər, latın dili kafedralarının, Elmi Tədqiqat Mərkəzinin, Mülki Müdafiə Tibb Xidməti Kursunun əməkdaşları və ATU-nun Abbas Səhhət- 25 ünvanında yerləşən kooperativ binasının sakinləri biokimya kafedrasının müdiri, professor Arif Əfəndiyevə oğlu

**Məhyəddin Əfəndiyevin və qardaşı Tofiq müəllimin**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Təbib" qəzetinin redaksiyası, Azərbaycan tarixi, iqtisadiyyat və hüququn əsasları kafedralarının əməkdaşları kadrlar şöbəsinin rəisi Fərman müəllimə əzizi

**İldırım Məmmədovun**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Rus dili və Azərbaycan dili kafedralarının əməkdaşları iş yoldaşları İradə Əliyeva anası

**Solmaz xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

ATU-nun Tədris-Terapevtik Klinikasının kollektivi V terapiya şöbəsinin müdiri Kəmalə xanıma əzizi

**Ağayev Rza Həsən oğlunun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

I cərrahi xəstəliklər kafedrasının və Kliniki Tibbi Mərkəzin I cərrahi şöbəsinin əməkdaşları iş yoldaşları, tibb elmləri namizədi, baş laborant

**Məhyəddin Arif oğlu Əfəndiyevin**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

I cərrahi xəstəliklər kafedrasının və Kliniki Tibbi Mərkəzin I cərrahi şöbəsinin əməkdaşları kafedranın baş laborantı Mahir Mahmudova atası

**Gümrah Mahmudovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Fəlsəfə kafedrasının əməkdaşları iş yoldaşları Arzu Əliyevaya həyat yoldaşı

**İldırım Məmmədovun**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan tarixi, iqtisadiyyat və hüququn əsasları kafedralarının əməkdaşları iş yoldaşları Aida Təhməzovaya anası

**Gülayə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Yoluxucu xəstəliklər kafedrasının əməkdaşları kafedranın assistenti M.Camaldinova atası

**Mirzəhməd müəllimin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Ümumi və toksikoloji kimya kafedrasının kollektivi kafedranın professoru Rəna xanıma əzizi

**Nazim müəllimin**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının əməkdaşları kafedranın professoru Musa Ələkbərova əzizi

**Mahizər xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Latın dili kafedrasının əməkdaşları kafedranın baş müəllimləri Cəmil Əhmədova və Ziba xanıma bacıları

**Abuhəyat xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İnsan anatomiyası kafedrasının əməkdaşları kafedranın dosenti N.Xudaverdiyevə bacısı

**Minayə Binnət qızının**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Stomatologiya fakültəsinin dekanlığı iş yoldaşları Aygün xanıma atası

**Vaqif müəllimin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Xarici dillər kafedrasının əməkdaşları iş yoldaşları Həqiqət xanım Mehdiyevaya qardaşı

**Rafiq müəllimin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının əməkdaşları kafedranın laborantı Aytən Qədirovaya əmisi

**Vaqif müəllimin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Cərrahi xəstəliklər kafedrasının əməkdaşları kafedranın assistenti Dilara İsmayılovaya atası

**Akif İsmayılovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Neonatologiya kafedrasının əməkdaşları Səadət xanıma atası

**Məhəmməd Ələsgərovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır.

Qəzet "Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 100
2-ci mərtəbə,
tel.: 595-24-97

Lisenziya N - 022633
İndeks -0269
Sayı 4000
Sifariş: 948